# Sumqayıtda şəhər təhsil işçilərinin konfransı keçirildi

**Yeni dərs ili yaxınlaşdıqca hər gün respublikamızın bu və ya digər şəhər və rayonunda təhsil işçilərinin ənənəvi konfransları keçirilir. Burada məktəb və bağça direktorları, müəllim və tərbiyəçilər ötən tədris ilində görülən işlərdən, əldə olunan nailiyyətlərdən danışır, qarşıda duran vəzifələri və problemləri müzakirə edirlər.**



Bu il sentyabr ayının 10-da Sumqayıt müəllimləri də şəhərin S.Vurğun adına mədəniyyət evində öz konfranslarını keçirdilər.

Konfrans salonuna yığışan tədbir iştirakçıları əvvəlcə Azərbaycan Respublikasının Himnini ifa etdilər. Sumqayıt Şəhər Təhsil Şöbəsinin Metodiki Kabinetinin direktoru Sabir Məmmədov giriş sözü ilə konfransı açaraq pedaqoji kollektivləri qarşıdan gələn yeni dərs ili münasibəti ilə təbrik etdi.

S.Məmmədov daha sonra məruzəsində bildirdi ki, heç şübhəsiz, ötən dərs ilinin ən mühüm hadisəsi respublikamızın Prezidenti, ulu öndər Heydər Əliyevin ideyalarını uğurla həyata keçirən hörmətli İlham Əliyevin apardığı siyasət nəticəsində, sosial-iqtisadi inkişafı dinamik davam etdirilən ölkəmizdə birinci Avropa Oyunlarının yüksək səviyyədə keçirilərək başa çatması, orada idmançılarımızın parlaq qələbəsi oldu. Bununla Azərbaycan müstəqil respublika olaraq gücünü bir daha göstərdi. Azərbaycan vətəndaşı olaraq biz — Sumqayıt təhsil işçiləri də bu uğurlara görə iftixar hissi keçirirk.

Ölkəmizdə yaranmış münbit şərait, Prezident İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva tərəfindən təhsil sisteminə göstərilən qayğı və dəstək sayəsində təhsil sahəsində islahat proqramının müvəffəqiyyətlə davam və inkişaf etdirilməsinə imkan verən, təhsilimizin gələcəyini müəyyənləşdirən, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi sahəsində respublikamız və eləcə də şəhərimizin təhsil sistemində müəyyən işlər aparılır.

Ötən dərs ilində daha üç məktəbimizdə (11, 7 nömrəli məktəblər və Orta ümumtəhsil internat məktəbi) əsaslı təmir işlərinə başlanmışdır. 11 nömrəli məktəbdə iş yekunlaşmaq üzrədir, 7 nömrəli məktəb və Orta ümumtəhsil internat məktəbdə işlər davam etdirilir. Bu işlər başa çatdırıldıqdan sonra şəhər üzrə əsaslı təmir edilmiş məktəblərimizin sayı 16-ya çatır. 5 məktəb binasının (43, 2, 42, 40 nömrəli məktəblər və Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəb) yeni tikildiyi nəzərə alınsa, 50 məktəbimizdən 21-nin binasının texniki vəziyyəti yaxşıdır.

Ötən dərs ilində vətənpərvərlik tərbiyəsi təhsil işçiləri qarşısında duran prioritet vəzifə kimi önə çəkilmiş, Bilik gününün ilk dərs saatı vətənpərvərlik mövzusuna həsr edilmişdir. Təhsil Şöbəsi tərəfindən "Mənim Vətənim — doğma yurdum" mövzusunda metodik tövsiyə hazırlanaraq məktəblərə paylanmış, bu dərslərdə Qarabağ müharibəsi, Böyük Vətən müharibəsi iştirakçılarının, şəhid ailələri üzvlərinin, tanınmış hərbçilərin iştirakı təmin edilmişdir.

Vətənpərvərlik tərbiyəsində xüsusi rolu nəzərə alınmaqla Gənclərin Çağırışaqədərki Hazırlığı GÇH fənninin tədrisi keyfiyyətinin yaxşılaşdırılması diqqət mərkəzində olmuş və bu məsələyə iki istiqamətdən yanaşılmışdır. Belə ki, komissiya təşkil edilərək bütün tam orta ümumtəhsil məktəblərində GÇH kabinetlərinə baxış keçirilmiş, mövcud kabinetlərin təritbatı və təchizatının tələbə cavab verməDiyi müəyyənləşdirilmişdir. Bütün məktəblərin hərbi kabinetlərində təmir işləri aparılmış, kabinetlər proqram materiallarının tələbinə uyğun plakatlar, əyani və texniki vasitələrlə tam təchiz edilərək yenidən qurulmuşdur.

Gənclərin Çağırışaqədərki Hazırlığı rəhbərlərinin məsuliyyət hissini artırmaq məqsədilə yığıncaq keçirilmiş və onların qarşısında yeni vəzifələr qoyulmuşdur. İşinin öhdəsindən gələ bilməyən 6 hərbi rəhbər (17, 19, 23, 31, 37, 40 nömrəli məktəblər) işdən kənarlaşdırılmış və onların yerinə yeni kadrlar təyin edilmişdir.

Məktəblilərin vətənpərvərlik tərbiyəsini daha da yaxşılaşdırmaq məqsədilə tariximizin öyrənilməsinə, oradakı bir sıra qaranlıq, təhrif olunmuş məsələlərə aydınlıq gətirilməsinə də ciddi diqqət yetirilir. 2012-2013-cü dərs ilində "Azərbaycanın dövlətçilik tarixi", 2013-2014-cü dərs ilində "Qarabağın tarixi" müsabiqəsi bu dərs ilində "Azərbaycan xanlıqlar dövründə" mövzusu üzrə davam etdirilmiş, VII-XI sinifləri əhatə edən 17 mindən çox məktəblinin qatıldığı müsabiqə və eyni mövzuda keçirilmiş konfrans da ötən dərs ilinin ən yaddaqalan hadisələrindən olmuşdur.

Ölkəmizin tarixi məkanlarına məktəblilərin ekskursiyası bu il də davam etdirilmişdir. Ötən dərs ilində 12 mindən çox Sumqayıt məktəblisinin dünyanın nadir məmarlıq incilərindən olan Bakı "Heydər Əliyev Mərkəzi"nə, "Milli Azərbaycan Tarixi Muzeyi"nə, Heydər Əliyev adına Ali Hərbi Məktəbə və sair yerlərə ekskursiyasının təşkili, şagirdlərin təhsilə, xüsusilə də tarix fənninə marağını artırmışdır.

Təhsil Nazirliyinin rəsmi məktubuna əsasən noyabr-may ayları ərzində ümumtəhsil məktəblərinin XI sinif şagirdlərinə dərsdənkənar vaxtlarda müstəqil Azərbaycan Respublikasının tarixinə aid seçilmiş mövzuların tədris olunması davam etdirilmişdir. Belə bir əhəmiyyətli addımın atılmasında məqsəd ölkəmizin müasir tarixinin şagirdlər tərəfindən hərtərəfli öyrənilməsinə maraq oyatmaqla onlarda fəal həyat mövqeyinin, vətəndaşlıq və vətənpərvərlik hislərinin daha da gücləndirilməsinə etibarlı zəmin yaratmaq olmuşdur. Tərtib olunmuş qrafik əsasında şəhərin 48, şəhərdə məskunlaşan məcburi köçkün rayonlarından Qubadlı, Laçın, Füzuli, Zəngilan, Cəbrayıl və Xocavənd rayonlarının 43 tam orta ümumtəhsil məktəblərinin XI sinifləri üzrə ulu öndərin adını daşıyan Mərkəzdə keçirilən mühazirələrdə 6989 şagird iştirak etmişdir.

Dərs ili ərzində fənlərin tədrisi vəziyyəti diqqət mərkəzində saxlanmış, IV və VIII siniflərdə fənlərin tədrisi vəziyyətinin monitorinqi keçirilmişdir. Monitorinqin keçirilməsində məqsəd şagirdlərin bilik keyfiyyətlərinin vəziyyəti, ayrı-ayrı fənlərin tədrisində mövcud problemlərin aşkara çıxarılması, eləcə də onların aradan qaldırılması yollarının müəyyən edilməsi olmuşdur.

Məktəblərin təlim göstəricilərinin təhlil edilməsi, müxtəlif parametrlər üzrə reytinq cədvəllərinin hazırlanaraq onların müzakirə olunması sağlam rəqabət mühiti yaratmaqla, nəticələrimizin bir qədər yaxşılaşdırılmasına şərait yaratmışdır. 2014-2015-ci dərs ilinin yekununda şəhər üzrə buraxılış imtahanlarının nəticələri də dediklərimizi bir daha sübut edir.

Ötən dərs ilində Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının IX siniflər üzrə keçirdiyi buraxılış imtahanında şəhər üzrə müvəffəqiyyət göstəricisi 0,5 faiz artaraq 81,5 faiz oldu. XI siniflər üzrə isə buraxılış imtahanında müvəffəqiyyət keçən illə müqayisədə 5,7 faiz azalmaqla 82,6 faiz olmuşdur. Buraxılış imtahanlarının nəticəsi Texniki və təbiət elmləri liseyi, Təbiət elmləri təmayüllü gimnaziya, "İstedad" və "Təfəkkür" liseyləri, 1, 21, 23 və 11 nömrəli tam orta məktəblərdə daha yaxşıdır.

Burada mən, son illərdə atdığımız iki uğurlu addımı diqqətinizə çatdırmaq istərdim. Onlardan birincisi və mən deyərdim ən önəmlisi məktəblər və müəllimlər arasında sağlam rəqabət yaratmış fənn aylıqlarının keçirilməsidir. Hər ay bir fənnə həsr edilməklə bütün məktəblərdə keçirilən bu tədbir Təhsil Şöbəsində yekunlaşdırılmış, "Müəllimin ən yaxşı açıq dərsi", "Ən yaxşı fənn metodbirləşməsi", "Ən yaxşı fənn dərnəyi" nominasiyaları üzrə qaliblər müəyyənləşdirilmişdir. Ötən dərs ilində fənn aylıqları çərçivəsində 2443 sinif, 2127 fənn müəllimlərimizin - demək olar ki, şəhər üzrə əksər müəllimlərin 4570 "Açıq dərsi" dinlənilmiş, 1025 fənn gecəsi keçirilmişdir.

Bu səmərəli yekun pedaqoji kollektivlər tərəfindən rəğbətlə qarşılanmış və yeni dərs ilində də fənn aylıqlarının daha səmərəli şəkildə davam etdirilməsinə zəmin yaratmışdır.

İkinci uğurlu addımımız isə yanvar ayının əvvəlində Təhsil Şöbəsi əməkdaşlarının iştirakı ilə vahid gündə bütün məktəblərdə I yarımilin yekunlarının pedaqoji şuralarda təhlil edilməsi, II yarımildə qarşıda duran vəzifələr və onun həyata keçirilməsi yollarının müəyyənləşdirilməsi olmuşdur. Bu, zəif nəticə göstərən müəllimləri və proqram materiallarını mənimsəməkdə çətinlik çəkən şagirdləri müəyyənləşdirmək imkanı vermiş, müəllimlərin nəticəyə görə cavabdehlik hissini artırmış və pedaqoji şuranın qərarı ilə cədvəl əsasında həmin şagirdlərə əlavə məşğələlər keçirilməklə onların irəli gəlmələri təmin edilmişdir.

Dərs ilinin ən əlamətdar hadisələrindən biri Təbiət elmləri təmayüllü gimnaziyada şəhərin VII-VIII sinif şagirdləri üçün "Fizika" və "Riyaziyyat" fənlərindən Olimpiadaya hazırlıq mərkəzinin yaradılması olmuşdur. Monitorinqin nəticəsinə görə "Riyaziyyat"dan 26, "Fizika"dan 28 nəfər ən yüksək bal toplamış şagird müəyyənləşdirilmiş və Olimpiyadaya hazırlıq mərkəzinə cəlb olunmuşlar.

Şagirdlərimizin dərsə davamiyyətini daha da yaxşılaşdırmaq məqsədilə www.e-tehsil.net saytı vasitəsilə "Onlayn davamiyyət" sistemi tətbiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrinin keçirilməsinə dair Sərəncamına əsasən şəhərimizin 1, 11 nömrəli məktəbləri və "Təfəkkür" liseyi respublika Prezidenti cənab İlham Əliyevin 17 dekabr 2014-cü ildə imzaladığı Sərəncamla "Ən yaxşı ümumtəhsil məktəbi", Təbiət elmləri təmayüllü gimnaziyanın 4 müəllimi "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşlar.

"Sabahın alimləri" Beynəlxalq layihə olimpiyadasına Sumqayıt məktəblilərindən 93 nəfər şagird qatılmış, onlardan 39 nəfərinin layihəsi sərgidə nümayiş etdirilmişdir.

Respublika üzrə beynəlxalq kimya olimpiyadasının seçim turu üçün qalib gələn 13 nəfər məktəblidən biri şəhərin Texniki və təbiət elmləri liseyinin XI sinif şagirdi Hüseynova Şəhla olmuşdur.

Fənn olimpiyadalarının zona mərhələsində uğurlu nəticələr qazanmış 28 nəfər Sumqayıt məktəblisi aprel ayında keçirilən final mərhələsində iştirak etmiş və uğur qazanmışdır.

"Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tələbinə uyğun olaraq, tam orta təhsil pilləsində təmayülləşməyə keçilməsi məqsədilə 1, 3, 14, 21 və 23 nömrəli məktəblərdə onuncu siniflərdə Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş dörd istiqamətdən ikisi üzrə (riyaziyyat-iqtisadiyyat, riyaziyyat-texniki) cəmi 7 təmayül sinfinin açılması üçün lazımi iş aparılmışdır.

Görülmüş işlərlə yanaşı bir sıra problem və çətinliklərimiz də vardır.

XI siniflər üzrə buraxılış imtahanlarında nəticəmiz ötən ilki göstərici ilə müqayisədə 5,7 faiz azalmışdır.

6, 7, 43 və 41 nömrəli məktəblər, orta ümumtəhsil internat məktəbi, fars-ingilis dilləri təmayüllü internat məktəbdə buraxılış imtahanlarının nəticəsi zəifdir.

8, 34, 19, 2, 3, 27 və 41 nömrəli məktəblərdə təhsilin keyfiyyət göstəricisi ən aşağıdır.

İnnovativ təlim metodları və texnologiyalarının öyrənilməsi və tətbiq edilməsində bütün imkanlardan istifadə edə bilməmişik, hələ də bu vacib məsələdən kənarda qalmış müəllimlərimiz vardır.

2014-2015-ci tədris ilinin yekunlarına görə ümumi orta təhsil pilləsini 211 şagirdin, tam orta təhsili 73 şagirdin əla qiymətlərlə bitirməsinə baxmayaraq, uyğun olaraq 79 şagirdin xüsusi nümunəli şəhadətnamə, 5 məzunun qızıl medalla təltifi təhsildə nailiyyətlər qazanmış şagirdlərimizin rəğbətləndirilməsinə lazımi diqqət yetirilməməsi kimi qiymətləndirilməli və növbəti dərs ilində bu məsələyə diqqəti artırmalıyıq.

Reydlər zamanı müəyyən edilmişdir ki, bəzi məktəblərimizdə dərsə davamiyyətə onlayn nəzarətə lazımi diqqət yetirilmir, davamiyyətin faktiki vəziyyəti ilə sistemə daxil edilən məlumat uyğun gəlmir, bu isə sistemin səmərəliliyini azaldır.

Bir sıra məktəblərimizdə müəllim-şagird növbətçiliyi lazımi səviyyədə təşkil olunmur, bu da məktəbdə intizamın aşağı düşməsinə səbəb olur.

Məktəbli formasının tətbiqinə nəzarət zəifdir.

Pedaqoji işçilərin tarifləşmə dərəcəsinin müəyyənləşdirilməsi, siniflərin iki qrupa bölünməsi, mal-material alınması, qeydiyyata götürülməsi və saxlanması və s. ilə bağlı məktəb direktorlarının maliyyə fəaliyyətinə nəzarət artırılmalıdır.

Məktəb-valideyn münasibətlərində hələ də nöqsanlar vardır. Etik norma və qaydalara riayət olunmaması, məktəb direktoru-müəllim-şagird-valideyn arasında xoşagəlməz halların baş verməsinə və müxtəlif instansiyalara şikayətlərə səbəb olur.

Göstərilən nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün hər cür imkanlarımız vardır. Sizi əmin etmək istəyirəm ki, Sumqayıt təhsil işçiləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ulu öndər Heydər Əliyevin başladığı "Təhsil sahəsində islahat proqramı"nın uğurla davam etdirilməsinə zəmanət verən Təhsil sahəsində Dövlət Strategiyasının həyata keçirilməsində fəal mövqedə olacaq.

Sonra konfransda məruzə ətrafında müzakirələr dinlənildi.

Konfransın işində Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov və Təhsil Nazirliyinin şöbə müdiri Aydın Əhmədov iştirak və çıxış etmişlər. Xüsusilə başçı Z.Fərəcovun çıxışı konfrans iştirakçıları tərəfindən böyük maraq və rəğbətlə qarşılanmışdır.

Müəllimləri sidqi-ürəkdən salamlayaraq onları yeni tədris ili münasibətilə təbrik edən Z.Fərəcov sözünə davam edib dedi: "Səkkiz gündür ki, doğma Sumqayıta möhtərəm Prezidentimizin sərəncamı ilə başçı təyin edilmişəm. Ancaq inanın ki, iş otağımda heç 8 saat oturmamışam. Çünki səhərdən axşama qədər şəhəri gəzib real vəziyyətlə əyani tanış olmuşam. Açığı deyim ki, şəhərdə vəziyyət ürəkaçan deyil. Xüsusilə şəhərin mərkəzindən uzaqda yerləşən məhəllə və mikrorayonlarda vəziyyət lap acınacaqlıdır. Burada yerləşən əksər yaşayış binalarının dam örtüklərinin təmirə ehtiyacı var. Binaların demək olar ki, hamısının zirzəmisi su ilə doludur...

...Bu günlərdə məktəb və uşaq bağçalarını da gəzdim və sözün əsl mənasında burdakı vəziyyətdən çox pərişan oldum. Təsəvvür edin ki, ölkəmizin iri sənaye mərkəzi sayılan Sumqayıt şəhərində olan 56 uşaq bağçasından 48-də istilik sistemi ümumiyyətlə yoxdur. Məktəblərdə isə son bir neçə ildə nəinki əsaslı, heç cari təmir də aparılmamışdır. Bu cür vəziyyətlə barışmaq olmaz. Biz də bunu qəbul edə bilmərik. Mən söz verirəm ki, bir il ərzində bütün bu neqativ məsələlər aradan qaldırılacaq. Məktəb və uşaq bağçaları əsaslı təmir olunacaq. Müəllimlərin rahat işləməsi üçün hər bir şərait yaradılacaq. Amma siz də bir il ərzində tədrisin keyfiyyətini yüksəltməli, ali məktəblərə qəbul faizini artırmalısınız".

Sonra tədbirdə Z.Fərəcovun təşəbbüsü ilə ali məktəblərə daxil olan və 650-dən çox bal toplayan 39 sumqayıtlı şagirdə noutbuk hədiyyə edildi.

Tədbirdə Sumqayıt şəhər təhsil işçiləri adından dövlət başçısı cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur.

**Söhrab SƏFİYEV,**
**"Respublika".**